**İlqar Rəsul**



(Hekayə)

# Elizaya

***Elza telefonu açmadığı üçün Nüsrət özünü asdı. Elə kəndir təzəcə boğazını üzməyə başlamışdı ki, mobil telefonuna zəng gəldi. Ən sevimli musiqisi ? Bethovenin “Elizaya”sı köynəyinin döş cibindən, düz ürəyinin üstündən qalxıb qulaqlarına dolaraq, sanki zəng edənin Elza olduğunu pıçıldayırdı. İkiəlli kəndirdən yapışıb bədəninin ağırlığı ilə çarpışmağa başladı:***

***- Hə, Elzadır. Bayaqdan zəngimi eşitmirmiş. Deməli, tamam atıb getməyib məni. Deməli, sevir...***

Amma kəndir öz işini gördü. Qollarına bir az da güc verdi:

- Bəlkə, heç o deyil. Telefonu açdım, Elza olmadı? - deyə arada şübhələnirdi də, - bəs onda halım necə olacaq?

Bu müddət ərzində qısa fasilələrlə telefona bir neçə dəfə aramsız zənglər gəldi. Arayanın əl çəkmək fikri yox idi, deyəsən. Nüsrət: “Ancaq Elza belə inad edər”, ? düşünüb, tavanla döşəmənin arasında vurnuxur, canını kəndirlə bədəninin ağırlığının məngənəsindən qurtarmağa çalışırdı. Axırda qolları yoruldu. Nəfəsi kəsiləndə kiminsə çiynini ayaqlarının altında hiss etdi....

***Gözlərini açanda qonşusu Kərimin başı üzərində dayanıb yalançı canıyananlıqla onu məzəmmət etdiyini gördü:***

***? Ay qonşu, nə olub, axı nəyin çatmır ki, özünü asırsan?!***

***Nüsrət ona məhəl qoymadan tələsik cibindən telefonu çıxardı ki, Elzaya zəng eləsin...***

- Zəng elədim, gördüm telefonun səsi evdən gəlir, amma açmırsan, dedim, yəqin nəsə olub, atdım özümü içəri! ? Kərim canfəşanlıqla əlavə etdi.

- Demək, sən idin zəng edən? - Nüsrət üzgün halda telefonu kənara atdı.

- Əlbəttə, mən idim. Bu həyətdə sənə məndən yaxın adammı var? Dayan, həkim çağırım...

Yox, lazım deyil. Polislər tökülüşəcəklər bura, məni ölmədiyimə görə, səni də başını hər yerə soxduğun üçün peşman edəcəklər. Ta narahat olma. İndi yaxşıyam, get, bir şey lazım olsa , çağıraram...

Kərim bir neçə dəfə Nüsrətə daha dəlilik etməyəcəyinə söz verdirib arxayın olandan sonra getdi. O evdən çıxan kimi Nüsrət qalxıb qapını içəridən bağladı...

Bayırdan günorta yumurtlamağa yer axtaran toyuqların qaqqıltısı eşidilirdi. Qonşu uşaqlar yenə nəyinsə üstündə dalaşırdılar. Günəş şüalarının çəkilmiş pərdələrin aralarından evə sızaraq havada yaratdığı nazik qızılı boruların içi ilə xəfif toz dənəcikləri üzürdü. Yarıqaranlıq otaqda hər şey ? dolabdakı kitablar, küncdəki üzəri dağınıq yazı masası, üzbəüz divarın yanındakı açıq qalmış qapağından, üstündəki külqabıda yarıya qədər çəkilmiş siqardan və sonadək içilmiş viski şüşəsindən bir az əvvəl çalındığı bəlli olan məşhur “Bechstein Diedirchs” alman royalı sanki bir azdan Nüsrətin gözlərində qeyb olacaqlarını duyub miskin görkəm almışdılar...

“Artıq məsələ gün kimi aydındır, Elza qayıtmayacaq”, ? düşünən Nüsrət kətilin üstünə çıxaraq kəndiri yenidən tavanda bərkitdi. Həlqəsini boynuna keçirdi. Sonra sağ əlini arxadan hərləyib sol biləyinə bağladığı ipin balaca həlqəsinə soxdu. İndi artıq ona heç əlləri də kömək edə bilməzdi. Özünü toplayıb kətili ayağının altından kənara itələyəndə pəncərənin şüşəsi döyüldü. Pərdənin arxasında Kərimin yekəqarın, gödək silueti bozardı:

- Nüsrət, ay qonşu! Az qala unudacaqdım, Elza bacıya zəng elə! Səndən nigarandır. Bayaq nə qədər zəng edib, telefonu açmamısan. Məndən də o xahiş etmişdi, evdə olub-olmadığını yoxlayım...

***Telefona zəng gəldi. Yenə otağın sükutuna rəng qatan Bethovenin “Elizaya”sı, yenə tavanla döşəmə arasındakı kəndir keçiddə diksinən insan həyatı...***

***...Nüsrət barmaqlarının ucu ilə kətili ayaqlarının altında nizamlamağa çalışdısa da, alınmadı. Kətil aşdı....***

Türküstan.- 2023.- 31 oktyabr-6 noyabr, №39.- S.15.